# Unudulmaz yazıçı-publisist

**Azərbaycan Yazıçılar Birliyinin "Natəvan" klubunda görkəmli yazıçı-publisist Hüseyn Abbaszadənin 100 illiyi münasibətilə yubiley mərasimi keçirilib.**



Tədbirdə qeyd edilib ki, ədib əmək fəaliyyətinə "Pioner" uşaq jurnalında şöbə müdiri, məsul katib kimi başlayıb. O, 1958–1964-cü illərdə "Göyərçin" jurnalının məsul katibi, 1964–1966-cı illərdə baş redaktoru vəzifələrində çalışıb. Yazıçı 1966–1971-ci illərdə "Ədəbiyyat və incəsənət" qəzetinin, 1972–1975-ci illərdə isə yenidən "Göyərçin" jurnalının baş redaktoru olub. Hüseyn Abbaszadə 1975-ci ildən 1991-ci ilədək Azərbaycan Yazıçılar İttifaqının katibi vəzifəsində çalışıb.

Daha sonra bildirilib ki, ədibə populyarlığı iki dəfə Sovet İttifaqı Qəhrəmanı general Həzi Aslanov haqqında qələmə aldığı "General" romanı gətirib. Ümumiyyətlə, Hüseyn Abbaszadənin yaradıcılığında müharibə mövzusu başlıca yer tutub. Onun əsərlərində Azərbaycan xalqının zəngin mənəviyyatı geniş əks olunub. Yazıçının hekayə, povest, roman və şeirləri geniş oxucu kütləsi tərəfindən məhəbbətlə qarşılanıb. Onun yaradıcılığı gənc nəslin milli ruhda tərbiyə olunmasında böyük rol oynayıb.

Xalq yazıçısının həyat və yaradıcılığı barədə Azərbaycan Yazıçılar Birliyinin sədri Anar, ədəbi-tənqidçi Vaqif Yusifli, yazıçılar Çingiz Abdullayev, Elçin Hüseynbəyli, "Azərbaycan" jurnalının baş redaktoru İntiqam Qasımzadə və digər tədbir iştirakçıları ürək dolusu söz açıblar. Qeyd edilib ki, ədibin xatirəsi qədirbilən Azərbaycan xalqının qəlbində həmişə yaşayacaq.

Xatırladaq ki, dövlətimiz yazıçının yaradıcılığını yüksək səviyyədə qiymətləndirib, xidmətlərini hər zaman diqqətdə saxlayıb. Hüseyn Abbaszadəyə Xalq yazıçısı, Əməkdar incəsənət xadimi adları verilib. Dövlət mükafatı laureatı, Azərbaycan Respublikası Prezidentinin təqaüdçüsü olub. Görkəmli yazıçı bir sıra orden və medallarla, müstəqil Azərbaycanın yüksək mükafatı– "Şöhrət" ordeni ilə təltif edilib.

**Elçin ABBASOV,**
**"Xalq qəzeti"**

Xalq qəzeti .- 2022.- 29 noyabr.- S.9.